MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIV buraxılış, Bakı, 2023
МИР КУЛЬТУРЫ
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIV выпуск, Баку, 2023*
THE WORLD OF CULTURE
*Azerbaijan State University of Culture and Art, XXXXIV edition, Baku, 2023*

**UOT 379.85.**
**DOI: 10.52094/3005-9941.44.2023.023**

**Səidə Vaqif qızı Hacıyeva**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**doktorant**
**E-mail: eliyevaseide@rambler.ru**

# AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Xülasə:** Təqdim olunan məqalə Azərbaycanda turizm sektorunun inkişafında Heydər Əliyevin rolunun araşdırılmasına həsr edilmişdir. Azərbaycanın 1960-cı illərin sonlarından başlayaraq XXI əsrə qədər davam edən 35 illik tarixi yolu Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycanda turizm sektoru inkişaf etmiş və müasir səviyyəyə gəlib çatmışdır. Bu gün turizm sahəsində əldə olunan müsbət dinamika Heydər Əliyevin adı ilə bağlı olub, onun imzaladığı sərəncamlar nəticəsində bu sektor inkişaf yoluna qədəm qoymuşdur. Heydər Əliyevin turizm sektorunun inkişafı sahəsindəki uğurlu siyasəti bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

**Açar sözlər:** Heydər Əliyev, turizm sahəsi, turizm siyasəti, turistlər üçün düşərgələr, turizmin inkişafı sektoru

Azərbaycanda turizmin inkişafı dövlət siyasətinin tərkib hissəsinə çevrilərək iqtisadi tərəqqinin və rifahın mühüm amili kimi qiymətləndirilir. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gəldikdən sonra bu potensialı düzgün qiymətləndirərək tənəzzülün aradan qaldırılması və turizmin inkişafı üçün xeyli sərmayə tələb edən bir sıra kompleks tədbirlər həyata keçirdi. Ulu Öndərin möhkəm təmələ söykənən sosial-iqtisadi siyasət strategiyası nəticəsində Azərbaycanın maliyyə imkanlarının ildən-ilə yaxşılaşması turizm sektorunda uğurlu islahatların aparılmasına imkan yaradır. Turizmin inkişaf tendensiyası ilk növbədə ölkənin ali qanunvericilik aktlarında öz əksini tapır. 1999-cu ildə Milli Məclis “Turizm haqqında” qanun qəbul edir və Heydər Əliyev “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi haqqında fərman imzalayaraq, bu sərəncamın əsasında 2001-ci il aprelin 18-də Gənclər, İdman və Turizm Nazirliyi yaradılır. Elə bu ilin sentyabr ayında Koreya Respublikasının paytaxtı Seulda keçirilən Ümumdünya Turizm Təşkilatının (ÜTT) XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu təşkilata daxil edilir [2, s.113].

Turizmin inkişafına xüsusi diqqət yetirən Ümummilli liderin siyasəti nəticəsində 2000-ci ildə İçərişəhər, Şirvanşahlar Sarayı və Qız Qalası YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilir və Azərbaycan bir çox dünya turizm sərgilərində, yarmarkalarında, festival və forumlarında iştirak etməyə başlayır. Heydər Əliyev həmişə öz çıxışlarında turizmin inkişafına xüsusi diqqət ayırmağın

zəruri olduğunu vurğulayaraq deyirdi: "Azərbaycan Respublikasının zəngin təbii sərvətləri və iqlim şəraiti turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada yer üzündə mövcud olan on bir iqlim qurşağından doqquzunun mövcud olunmasına görə bu geniş potensialdan istifadə etməklə biz ümumi daxili məhsulun 10 faizini turizmdən əldə etmək imkanına malikik. Turizm Azərbaycan əhalisinin aktiv istirahətinin əsas geniş yayılmış və kütləvi növlərindən biri olmalı və dünya xalqları ölkəmizin turizm sektorundakı nailiyyətlərindən yararlanmalıdırlar" [1, s.26].

Heydər Əliyevin Azərbaycanda turizmin inkişafındakı xidmətlərini təhlil etməzdən əvvəl ilk növbədə ölkəmizdə turizmin yaranma tarixinə qısa olaraq nəzər salaq:

Bir çox alimlərin fikrinə görə Azərbaycan Böyük İpək Yolu üzərində yerləşən ölkə kimi böyük şöhrət qazanmışdı. Azərbaycanda müxtəlif illərdə səfərdə olmuş diplomatlar, tacir və səyyahlar: Marko Polo, Rui Qonzales, Afanasius Nikitin, Josafat Barbaro, Ambrokko Kontarini, Entoni Cenkinson, Vinçenso Aleksandri, Sadko, Ovliya Çelebi, Fyodor Kotov, Engelbert Kempfer xalqımızın ticarətin inkişafında fəal iştirak etdiyini öz gündəliklərində qeyd etmişlər.

XX əsrin əvvəllərində elmi-coğrafi cəmiyyətlər turizmin inkişafına diqqət yetirməyə başladılar. Bu xüsusda 1908-ci ildə Bakıda Krım-Qafqaz klubunun şöbəsi açılaraq burada ekskursiya səfərlərinin keçirilməsi təşkil olunur.

1929-cu ildə yaranan "Proletar" Turizm Cəmiyyəti turizmin sürətlə inkişafına təkan verir. Tezliklə Bakıda və digər iri şəhərlərdə turizm şöbələri və ekskursiya büroları yaradılaraq, burada turizm marşrutlarının açılması, təşkili və turizmin inkişafı əsas prioritetə çevrilir. Turizm əhalinin müxtəlif səviyyəli maddi təminatı ilə müxtəlif təbəqələri əhatə edən kütləvi hərəkata çevrilir. Turizmə əhalinin siyasi, vətənpərvərlik və mədəni səviyyəsinin yüksəldilməsi vasitəsi kimi baxılırdı. Həmkarlar ittifaqları işçilərin istirahətini təşkil edən ekskursiya fəaliyyəti ilə məşğul olunmağa başlayır. Azərbaycanda turizmin kütləviləşdirilməsi və genişləndirilməsi məqsədilə 1935-ci ildən Azərbaycan Turizm Ekskursiyalar Cəmiyyətinin Bakı şöbəsi fəaliyyətə başlayır. Hacıkənddə, Göygölün sahilində turist bazaları yaradılır və Gəncədə Turist Rayon Şurası açılır. 1950-ci ildən turist xidmətlərinin dairəsi genişlənərək velosiped və atçılıq növü, ailələr üçün marşrutlar təşkil edilir. Tezliklə Mingəçevirdə, Zaqatalada, Şuşada turizm bazası yaradılmış, 1962-ci ildən isə Bakıda Azərbaycan Turizm Şurası fəaliyyətə başlayır. İşçilərin yay tətilini təşkil etmək üçün Xəzər dənizinin sahilində Nabran kəndində Bakı turizm bazasının filialı təşkil olunur. 1963-cü ildən Bakıda turizm klubu, Nabranda isə "Xəzər" turizm bazası fəaliyyət göstərir. Turizm bazaları turistlərin əksəriyyətinə xidmət göstərirdi. 1970-ci ilə qədər Azərbaycanın demək olar ki, bütün bölgələrində turizm düşərgələri və turizm bazaları təşkil edilir [2, s.127].

1973-cü ildə xarici turistləri ölkəyə cəlb etmək üçün "Azərbaycan" mehmanxana kompleksi, 1978-ci ildə isə "Moskva" mehmanxanası, "İnturist" səhmdar cəmiyyəti istifadəyə verilmişdir. Xarici ölkələrdən 50 min, keçmiş SSRİ-

nin müxtəlif bölgələrindən isə 250 min nəfər Lənkəran, Mingəçevir, Şuşa və Bakıya səyahət edərək, Azərbaycanın füsunkar təbiətinə heyran qalırlar. Turizm komplekslərinin tikintisinə SSRİ Nazirlər Kabineti və Heydər Əliyev Azərbaycanın Xəzər kurort zonalarının yaradılması haqqında qərar qəbul edir.

1988-ci ildən başlayaraq Ermənistanın təcavüzü ilə əzəli tarixi Azərbaycan torpaqları olan Qarabağın işğalı nəticəsində Azərbaycana turist axını kəskin şəkildə azalır. Ölkə əhalisi istirahət və turizmin təşkilindən daha çox fövqəladə vəziyyət problemləri ilə məşğul idi. Azərbaycanda yüz minlərlə qaçqın öz torpaqlarından didərgin düşdüyü üçün hökumət qaçqınların turizm komplekslərində yerləşdirilməsinə qərar verir və turizm təşkilatlarının fəaliyyəti dayandırılaraq Ümumittifaq və Beynəlxalq turizm marşrutları bağlanır.

1991-ci ilin sentyabrında Xarici Turizm İdarəsi ləğv edilərək onun əvəzinə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Xarici Turizm Şurası yaradılır.

Nəhayət Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi illərində ölkəmizdə turizm sektoru yenidən canlanır. Belə ki, bir sıra iri şəhərlərimizdə beynəlxalq standartlara uyğun müasir avadanlıqla təchiz olunmuş iri mehmanxana kompleksləri tikilib turistləri qəbul etməyə başlayır. Xarici ölkələrdən Azərbaycanın müxtəlif bölgələrinə səyahət edən turistlər ölkəmizin təbiətinə valeh olur, Bakı şəhərində isə onlar Şərqlə Qərbin cəlbedici vəhdətini müşahidə edirdilər. Turizm sahəsində dövlət siyasətini həyata keçirən Mədəniyyət və Turizm Nazirliyi xarici turistlərin cəlb edilməsi və müasir turizm infrastrukturunun yaradılması istiqamətində məqsədyönlü iş aparır.

Bu gün inanmaq çətindir ki, son vaxtlara qədər dünya turizm arenasında Azərbaycan haqqında heç bir məlumat olmayıb. Ümummilli lider Heydər Əliyevin fərmanına əsasən nazirlik yaradılandan sonra dünyada ölkəmizin zəngin turizm potensialına malik bir dövlət olması barədə danışmağa başladı. Bu, daha çox respublikamızın çoxsaylı dünya səviyyəli turizm sərgilərində iştirakı, eləcə də ölkə rəhbərliyi tərəfindən turizm sektorunun inkişafına yönəlmiş müxtəlif dövlət proqramlarının qəbul edilməsi sayəsində baş vermişdir.

Belə ki, 2001-ci ildə Azərbaycan UNWTO-ya üzv qəbul edilir və artıq 2002-ci ilin may ayında təşkilatın baş katibi Françesko Franqialli Bakıda AITF-2002 I Beynəlxalq Turizm Sərgisinin açılışı ərəfəsində keçirilən tədbirlərdə iştirak edir. Qısa müddətdən sonra ölkənin bir sıra tarixi və memarlıq abidələri YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilir.

2002-ci ildə Heydər Əliyevin sərəncamı əsasında respublika ərazisində turizmin inkişafını təmin etmək məqsədilə beynəlxalq standartlara cavab verən 7 əsas turizm marşrutu müəyyən edilir: Bakı-Xaçmaz, Bakı-Astara, Bakı-Balakən, Bakı-Qazax, Bakı-Abşeron yarımadası-Qobustan, Bakı-Naxçıvan, Bakı-Şuşa.

Heydər Əliyevin turizmin inkişafı ilə bağlı atdığı addımlar ölkəmizdə bu sektorun inkişafına və dirçəlməsinə xüsusi təkan verir. Turizmin müxtəlif növlərinin genişləndirilməsi və yaradılması istiqamətində işlər aparılır: ekoturizm, xizək sürmə,

yüyürüş, at sürmə, avtomobil, dəniz, çay, alpinizm kimi növlərin inkişaf etdirilməsi üçün proqramlar tərtib edilir. Tematik marşrutlar hazırlanır: palçıq vulkanları, təbii mineral bulaqlar, arxeoloji qazıntılar, tarixi-memarlıq kompleksləri, maraqlı təbiət obyektləri və s.

Heydər Əliyev turizmi inkişaf etdirmək üçün qardaş Türkiyə dövlətinin siyasətindən bəhrələnir və ölkəmizdə də Türkiyədə olduğu kimi yüksək səviyyəli turizm bazaları yaratmağı düşünürdü. Bu sahədə o, Türkiyə ilə müqavilələr bağlayaraq, qardaş xalqın təcrübəsindən faydalanmağa çalışırdı. Turizm sahəsində əməkdaşlıq çərçivəsində Azərbaycan hökuməti ilə Belarus, Yunanıstan, Qazaxıstan, Fransa, Tacikistan, Misir, Pitva, Qətər, İordaniya, Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Rusiya, Səudiyyə Ərəbistanı, Avstriya, Böyük Britaniya, İsrail, İran, Bəhreyn, Oman, Macarıstan, Koreya, İsveçrə, İndoneziya, Yaponiya, Bruney, Malayziya, San Marino, Mərakeş, Argentina, Meksika, Makedoniya, İsveç, Filippin, Kuba və Xorvatiya arasında müqavilələr imzalanır [6].

Heydər Əliyevin turizm sektorundakı inkişaf strategiyası müasir dövrümüzdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, Prezident İlham Əliyevin 2016-cı il sentyabrın 1-də imzaladığı Sərəncam əsasında ölkəmizdə Ümumdünya Turizm Günü "Turizm işçiləri günü" kimi qeyd olunur. Bununla bağlı müxtəlif tədbirlər, ümumrespublika turizm konfransları keçirilir, turizm sektoru ilə bağlı layihələr həyata keçirilir. Respublikada 2018-ci ilin may ayına kimi turizm sahəsində dövlət siyasəti Mədəniyyət və Turizm Nazirliyinin müvafiq strukturları tərəfindən həyata keçirilib. Hazırda Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi turizm sahəsində dövlət siyasətini və tənzimləməni, o cümlədən tabeliyində olan dövlət qoruqlarının ərazilərində tarix və mədəniyyət abidələrinin mühafizəsini həyata keçirir.

Xarici televiziya kanallarda məzmunu respublikanın turizm potensialını əks etdirən reklam çarxları yayımlanaraq, dünyanın müxtəlif dillərində gözəl otellər, çimərliklər və maraqlı turistik yerlərdən bəhs edən 50-yə yaxın reklam nəşri çap olunur. Turizm sahəsindəki gəlirlərin statistikası aparılaraq müsbət dinamika nəzərə çarpır. Belə ki, 2005-ci ildə xarici vətəndaşların ölkədəki xərcləri 373,1 milyon dollar olubsa, 2012-ci ildə bu xərclər 1479,0 milyon dollara yüksələrək, beynəlxalq miqyasda turizmin payı iki dəfə artır.

2011-ci il Azərbaycan Respublikasında "Turizm ili" elan edilir. Azərbaycan Dünya Turizm Təşkilatına üzv olaraq, onun əsas məqsədini sülhün, qarşılıqlı anlaşmanın və iqtisadi inkişafın təmin edilməsində mühüm amil kimi turizmin inkişaf etdirilməsi ideyaları təşkil edir. Azərbaycan Dünya Turizm Təşkilatının keçirdiyi bütün tədbirlərdə: assambleyalarda, görüşlərdə, seminarlarda və təlim kurslarında iştirak edərək nailiyyətlər qazanır.

Müasir dünyada turizm hər bir ölkə üçün iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biri hesab olunur. Azərbaycan da bu sahənin inkişafına ciddi diqqət yetirir. Turizm geniş və sürətlə inkişaf edən iqtisadi sektorda artıq dünyada ən gəlirli

sahələrdən birinə çevrilib. Turizm sektorunun davamlı inkişafı və genişlənməsi bu sektoru sosial və iqtisadi tərəqqinin aparıcı qüvvəsinə çevirmişdir. Turizmlə bağlı yeni iş yerləri, müəssisələr və infrastruktur yaradılır ki, bu da son 10 ildə ölkəmizdə turizmin inkişafı istiqamətində görülən işləri, aparılan islahatları, qəbul olunmuş dövlət proqramlarını, normativ-hüquqi bazanın təkmilləşdirilməsini bir daha sübut edir. Bu hadisələr nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyur və ölkəmiz dünyada tanınan yeni turizm məkanına çevrilir, beynəlxalq turizm bazarının inteqrasiyası ildən ilə artır. Ölkəmizdə dayanıqlı turizmə nail olmaq üçün qış turizmi üçün bazanın yaradılması və mövsümlülüyün aradan qaldırılması zərurəti yaranıb. Bu məqsədə çatmaq üçün Azərbaycan Respublikasında fəaliyyət göstərən Şahdağ yay-qış turizm kompleksi müasirliyi və çoxşaxəliliyi ilə dünyanın analoji komplekslərindən fərqlənir. Kompleks Azərbaycan tarixində ilk dağ-xizək kurortudur. Bir neçə il əvvələ qədər Azərbaycan vətəndaşları qış mövsümündə turizm məqsədilə başqa ölkələrə səfər edirdilərsə, artıq buna ehtiyac yoxdur. Belə ki, ölkəmizdə iki qış turizm müəssisəsi fəaliyyət göstərir: Qusarda Şahdağ yay-qış istirahət kompleksi və 2014-cü ildə Qəbələ rayonunda istifadəyə verilmiş Tufan xizək mərkəzi. Bu böyük komplekslərin tikintisi onu göstərir ki, Azərbaycanda həm yay mövsümündə alternativ turizmin inkişafına, həm də bu sahədə infrastrukturun yaradılmasına xüsusi diqqət yetirilir [5].

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamı əsasında turizm sənayesi üçün müasir beynəlxalq tələblərə cavab verən mütəxəssislərin hazırlanması məqsədilə, müxtəlif təhsil formalarını tətbiq etməklə, dərin peşə biliyi, yüksək mədəniyyət və vətəndaş fəallığını özündə birləşdirən yüksək peşəkarlıqlı mütəxəssislər hazırlamaq məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 fevral tarixli 45 nömrəli qərarı ilə Azərbaycan Turizm İnstitutu yaradılmışdır. Fərmana görə Azərbaycan Respublikasında turizm, menecment və digər xidmətlərin sürətli inkişafını nəzərə alaraq "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2014-cü il tarixli Sərəncamı ilə Turizm və Azərbaycan İdarəetmə Universiteti yaradılır.

Beləliklə, Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda bir çox sahələrin inkişafına nail olduğu kimi turizm sektorunun da müsbət dinamika ilə davamına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda turizm sektorunun infrastrukturu ciddi şəkildə inkişaf edir. Azərbaycanda turizm müasir həyat tərzinin və mədəniyyətinin mühüm atributu, beynəlxalq əlaqələrin formalarından biri kimi təzahür edir.

## Ədəbiyyat siyahısı:

1. Soltanova H.B., Hüseynova Ş.H. Turizmin Əsasları. Bakı, 2007
2. Билалов, Б. А. Регулирование туристической деятельности / Б. А. Билалов/ Баку: 2006, Мутарджим. 276 с. (на азерб. яз.).

3. Гасанов, А.Н. Развитие регионального туризма в Азербайджане: проблемы, перспективы / А. Н. Гасанов. Баку: «Европа», 2012. 376 с. (на азерб. яз.).
4. Мамедов, Дж. А. Приезжий туризм в Азербайджане и пути его развития / Дж.А.Мамедов, Б.А.Билалов. Баку: Мутарджим, 2004. – 212 с. (на азерб. яз.).
5. https://heydar-aliyev-foundation.org/en/content/index/63/
6.http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/77832.htm

**Саида Вагиф ги Гаджиева**

## Роль Гейдара Алиева в развитии туризма в Азербайджане

**Резюме:** С целью эффективной оценки существующего туристического потенциала в Азербайджане и устранения недостатков в этой области необходимо провести научные исследования для местного туризма. Одной из отраслей применения нефтяных доходов должна стать сфера туризма. Сегодня международный туризм находится в центре внимания Азербайджанской Республики и становится основной силой ненефтяного сектора экономики страны. Туристическая отрасль Азербайджанской Республики уже начала развиваться. В результате проводимой в последние годы государственной политики Азербайджан стал известен в мире как новое туристическое направление, обеспечена интеграция в туристический рынок на международном уровне. 35 лет истории Азербайджана, начиная с конца 1960-х годов и продолжаясь в XXI веке, связаны с именем великого лидера Гейдара Алиева.
**Ключевые слова:** Гейдар Алиев, сфера туризма, туристическая политика, палаточные лагеря для туристов, схема развития туризма.

**Saida Vagif кызы Hajıyeva**

## The role of Haydar Aliyev in the development of tourizm in Azerbaijan

**Summary:** For the purpose of efficient assessment of the existing tourism potential in Azerbaijan and elimination of shortages in this field, it is necessary to conduct scientific investigations for local tourism. One of the sectors for application of oil revenues should be tourism field. Today, international tourism is in the center of attention in the Republic of Azerbaijan and it is becoming a major force in the nonoil sector of the country's economy. The tourism industry of the Republic of Azerbaijan has already begun to develop. As a result of the state policy pursued in recent years, Azerbaijan has become known in the world as a new tourism

destination, and integration into the tourism market at the international level has been ensured. 35 years of the history of Azerbaijan beginning from the late 1960-s and proceeding in the 21st century is connected to the name of great leader Haydar Aliyev.

**Key words:** Haydar Aliyev, field of tourism, tourism policy, campgrounds for tourists, scheme for development of tourism.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 09.11.2023**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Səyavuş Məhişov**